# MÜBARİZ KEŞİKDƏ

5 iyun 2019-cu il
Çərşənbə
№ 21 (3436)

1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiymətі 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

**Hörmətli həmvətənlər!**

**Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.**

**Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini layaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.**

**Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini vermiş, böyük alimlər və mütəfəkkirlər yetişdirmişdir. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynamışdır.**

**Əziz bacı və qardaşlarım!**

**Bu günlər ölkəmizin hər yerində xalqımızın əminamanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.**

**Ramazan bayramınız mübarək olsun!**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 3 iyun 2019-cu il.*

## POLŞA PREZİDENTİ ANDJEY DUDANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ



Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Polşa Respublikasının Prezidenti Andjey Dudanın mayın 31-də rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Andjey Dudanın təkbətək görüşü olub.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Polşa sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumda iştirak ediblər.

Dövlət başçıları biznes forumda nitq söyləyiblər.

Mayın 31-də Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi keçirilib.

Paytaxtın "Polşa memarları" küçəsində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda iştirak ediblər.

Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Buradakı binaların birində polşalı memarlar - İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunan xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub. Xatirə lövhələrinin müəllifi Azərbaycanın Əməkdar memarı Elbay Qasımzadədir.

Mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Andjey Duda ziyafətdə çıxış ediblər.

## BAKI OLİMPİYA STADİONUNDA UEFA AVROPA LİQASININ FİNAL QARŞILAŞMASININ QALİBİ "ÇELSİ" KOMANDASI OLUB

### *AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNAL OYUNUNA BAXIB*

Mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub.

Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutub.

Oyunu italiyalı referi Canluka Rokki idarə edib. Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq, komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazanıblar.

Final oyununun möhtəşəm açılış mərasimində ingiltərəli DJ, bəstəkar və remikser Conas Blu Bakı Olimpiya Stadionuna toplaşan azarkeşlərə unudulmaz anlar yaşadıb. O, möhtəşəm mərasimdə 150 yerli rəqqasla birlikdə səhnəyə çıxıb.

Şərq ilə Qərbin qovuşduğu Bakıda təşkil olunan bu möhtəşəm mərasimdə Conas Blunun bənzərsiz ifası azarkeşlərin coşqulu alqışları ilə qarşılanıb.

Mərasimin ən yadda qalan hissəsi Conas Blunun bənzərsiz ifasının sədaları altında "Çelsi" və "Arsenal" komandalarının nəhəng formalarının arenaya gətirilməsi olub.

Açılış mərasimindən sonra turnirin kuboku arenaya gətirilib. Daha sonra "Arsenal" və "Çelsi" komandalarının futbolçuları meydana çıxıblar.

İki yüzdən çox ölkədə canlı yayımlanan final qarşılaşması "Çelsi"nin qələbəsi ilə (4-1) başa çatıb.

Final matçından sonra qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçirilib.

Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start verilib. Martın 22-23-də Sevilya, martın 29-30-da Berlin, aprelin 5-6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olan kubok mayın 19-da Gəncədə, 21-də isə Cocuq Mərcanlıda nümayiş olunduqdan sonra Bakıya gətirilib.

UEFA Avropa Liqasının final qarşılaşması çərçivəsində keçirilən tədbirlərdən biri də martın 3-də "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşma olub.

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu il mayın 29-da Avropa Liqasının Bakıda keçirilən final oyunu zamanı ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində göstərdiyi nümunəvi xidmətə görə daxili işlər orqanlarının şəxsi heyətinə öz təşəkkürünü bildirmişdir.***

***Cənab Prezident təşəkkürünün şəxsi heyətə elan edilməsi üçün Daxili İşlər naziri, general-polkovnik Ramil Usubova tapşırıq vermişdir.***

***Ölkə başçısının təşəkkürü polis orqanlarında və Daxili Qoşunların nizami hissələrində şəxsi heyətə elan edilmişdir.***

***Polis əməkdaşları və hərbi qulluqçular ölkə Prezidentinin göstərdiyi bu ali diqqəti böyük sevinc və ruh yüksəkliyi ilə qəbul etmişlər.***

***Nazir R.Usubov möhtərəm dövlət başçımızı əmin etmişdir ki, Vətəninə, xalqına və dövlətinə sədaqətli olan daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da üzərinə düşən bütün vəzifələri əzmlə yerinə yetirəcək, asayişin, təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi ilə bağlı təşəkkürünü bildirdi və bu qərarın Azərbaycan ictimaiyyəti tərəfindən böyük minnətdarlıqla qəbul edildiyini vurğuladı.

Telefon söhbəti zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əldə edilmiş nailiyyətlərdən məmnunluq ifadə olundu. Azərbaycan və Rusiya prezidentləri əlaqələrimizin inkişafına dair müxtəlif məsələlər və əməkdaşlığımızın perspektivləri, eləcə də gələcək təmaslar haqqında fikir mübadiləsi apardılar.

***Mayın 30-da Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.***

❖❖❖❖❖

**İyunun 1-də dövlətimizin başçısı xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri iyunun 3-də Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**İyunun 3-də dövlətimizin başçısı Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti və sahibkarlarla iş sahəsində fərqlənən şəxslərin mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı iyunun 3-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov 2019-cu il iyun ayının 22-də Quba Rayon Polis Şöbəsində Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının (DİNŞ) növbəti iclasında iştirak etmək üçün Özbəkistan Respublikasında ikigünlük rəsmi səfərdə olub.**



Əvvəlcə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev MDB Daxili İşlər Nazirləri Şurasının (DİNŞ) üzvlərini qəbul edib.

O, Şuranın terrorizm, ekstremizm, narkotrafik, mütəşəkkil cinayətkarlıq və insan alveri ilə mübarizədə geniş və əhatəli iş apardığını, qurumun MDB məkanında təcrübə və informasiya mübadiləsinin aparılması istiqamətində də səmərəli fəaliyyət göstərdiyini vurğulayıb.

Görüşdə əlaqələrin daha da genişləndirilməsi, birgə tədbirlərin keçirilməsi, kadrların hazırlanması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Mayın 31-də Daşkənd şəhərində Daxili İşlər Nazirləri Şurasının iclası öz işinə başlayıb.

Tədbiri giriş sözü ilə Özbəkistan Respublikasının Daxili İşlər naziri, general-leytenant Pulat Bobojonov açıb və DİNŞ-in iclasına uğurlar arzulayıb.

Şuranın sədri, Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov bu quruma rəhbərlik etdiyi bir il ərzində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, son bir ildə Birlik iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirlikləri arasında əməkdaşlığın səmərəliyinin artırılmasına yönəlmiş tədbirlər fəal şəkildə davam etdirilib, MDB-nin İcraiyyə Komitəsi, bu qurumun xüsusiləşdirilmiş sahələrarası orqanları ilə əlaqələrin möhkəmləndirilməsinə, eləcə də DİNŞ-in Bakı iclasının qərarlarının və tapşırıqlarının icrasına xüsusi diqqət yetirilib.

Sonra MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası haqqında Əsasnaməyə uyğun olaraq Şuraya rəhbərlik Özbəkistan Respublikasının Daxili İşlər nazirinə həvalə olunub.

İclasın gündəliyində MDB-nin iştirakçısı olan dövlətlərin DİN-lərinin 2030-cu ilədək əməkdaşlıq Konsepsiyası, daxili işlər orqanları tərəfindən kompleks razılaşdırılmış və birgə əməliyyat-profilaktik tədbirlərin keçirilməsinin vahid qaydalarını reqlamentləşdirən sənəd, MDB məkanında terrorizm, ekstremizm, narkotiklərin və silahların qeyri-qanuni dövriyyəsinin, mütəşəkkil cinayətkarlığın qarşısının alınması istiqamətində müzakirələr aparılıb.

MDB-nin iştirakçısı olan dövlətlərin DİN-lərinin əməkdaşlığının prioritet məsələləri və cinayətkarlıqla mübarizəyə dair dövlətlərarası proqramların yerinə yetirilməsinin gedişi barədə çıxış edən nazir R.Usubov gündəlikdəki bütün məsələlərin aktuallığını, onların daxili işlər orqanlarının qarşısında duran, günümüzün reallıqları ilə səsləşən vəzifələrə uyğun olduğunu qeyd edib, müzakirələrin əməkdaşlığın daha da intensivləşməsinə və genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini ifadə edib.

O bildirib ki, ötən illər ərzində Birlik üzvü olan ölkələrin DİN-lərinin aidiyyatı qurumları tərəfindən sıx işbirliyində minlərlə ağır cinayətlərin üstü açılıb, çoxsaylı mütəşəkkil transmilli kriminal qruplar zərərsizləşdirilib, təhlükəli cinayətkarlar tutularaq ekstradisiya olunub.

Cənab Ramil Usubov son illər ölkəmizdə cinayətkarlıqla aparılan qətiyyətli mübarizənin müsbət nəticələri, ümumilikdə cinayətlərin, o cümlədən ağır və xüsusilə ağır cinayətlərin açılması, azalma tendensiyası, dövlətlərarası axtarışa verilən təqsirləndirilən şəxslərin tutulması, əlverişli kriminogen durum, ictimai asayişin qorunması sahəsində həyata keçirilən tədbirlər barədə danışıb, beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın yeni təhdid və çağırışlarına birgə səylərlə cavab verilməsinin zəruriliyini diqqətə çatdırıb.

Dostluq və konstruktiv əməkdaşlıq şəraitində keçən toplantıda planlaşdırılan bütün məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.

İştirakçılar Şuranın iclasının işinə verdiyi yüksək qiymətə görə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə, habelə tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə bu ölkənin Daxili İşlər Nazirliyinin rəhbərliyinə təşəkkürlərini ifadə ediblər.

Sonda keçirilən mətbuat konfransında nümayəndə heyətlərinin rəhbərləri jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

*1 iyun 2019-cu il.*

# AZƏRBAYCAN POLİSİ YÜKSƏK PEŞAKARLIQ NÜMAYİŞ ETDİRDİ

**Azərbaycan Polisi Avropa Liqasının Bakıda keçirilən oyunları zamanı ictimai asayişin qorunması və təhlükəsizliyin təmin edilməsi kimi vacib tapşırığın öhdəsindən layiqincə gəldi. Azərbaycan yenidən bütün dünyadan gələn qonaqlara evsahibliyi etdi və bunu bizim növbəti uğurumuz adlandırmaq olar.**

Azərbaycan yenidən bütün dünyaya genişmiqyaslı beynəlxalq səviyyəli təbirlərə evsahibliyi etmək





təcrübəsinə malik olduğunu sübut etdi.

Mayın 29-da keçirilməsi səbirsizliklə gözlənilən Avropa Liqasının final oyunu uğurla baş tutdu. Hüquq-mühafizə və dövlət təhlükəsizlik xidməti orqanlarının əməkdaşlarının səyləri nəticəsində tədbirdə yüksək təhlükəsizlik təmin





olundu və uğurla başa çatdı.

Bu da təsadüfi deyil, çünki Azərbaycan Polisi “Avroviziya”, “Formula -1” Qran- Pri yarışları, İslam Həmrəylik Oyunları, “Jara” festivalı, Gimnastika üzrə Dünya Kuboku, Birinci Avropa Oyunları, Bakı Beynəlxalq Humanitar Forumu, Beynəlxalq Antidopinq Agentliyinin Təsisçilər Şurasının və onun İcraiyyə Komitəsinin iclasları və bu kimi bir sıra böyük beynəlxalq tədbirlər zamanı təcrübə qazanıb.

Qonaqların təhlükəsizliyini təmin etməyə cəlb edilən əməkdaşlar da diqqətlə seçilib. Gələn qonaqlar Heydər Əliyev adına Beynəlxalq Hava Limanında polislər tərəfindən qarşılanıb, Yol Patrul Xidməti qonaqların otellərə təhlükəsiz şəkildə çatdırılmasına yardım edib. Bu o deməkdir ki, paytaxt polisi bütün resursları və şəxsi heyəti işə cəlb edib.

Final oyunu keçirilən gün müvafiq tədbirlər görüldü. Respublika vətəndaşları və əcnəbi qonaqlar heç bir problem olmadan stadiondakı yerlərini aldılar. Eyni zamanda, strateji nöqtələrdə və qonaqların sıx olduğu yerlərdə təhlükəsizlik yüksək səviyyədə təşkil edildi. Bunun nəticəsində heç bir insident qeydə alınmadı.

Hərçənd azarkeşlərin əksəriyyətinin sərxoş vəziyyətdə olması və ingilis azarkeşlərin "xuliqan şöhrəti" nəzərə alınarsa, belə insidentlərin baş verməsi gözlənilən idi. Lakin Azərbaycan Polisinin sayıqlığı münaqişəli vəziyyətlərin yaranmasının qarşısını aldı. DİN Daxili Qoşunlarının suvari qrupu isə bayram əhval-ruhiyyəsini daha da maraqlı etdi.

Qeyd edək ki, daha öncə Böyük Britaniyanın Xarici İşlər Nazirliyi final oyunlarını izləmək üçün Bakıya gəlməyə hazırlaşan vətəndaşları əsassız yerə xəbərdar edərək, onlara ehtiyatlı olmağı tövsiyə etmişdi. Britaniya XİN bunu ölkədə qeyri-stabil kriminal vəziyyət və terror təhlükəsi ilə əlaqələndirmişdi. Lakin indi Avropa qorxularının yersiz olduğunu anladı.

Mayın 29-da bütün dünyanın Bakı Olimpiya Stadionundan izlədiyi "Çelsi" və "Arsenal" klubları arasında UEFA Avropa Liqasının final oyunu əsl futbol bayramı idi. Onun həm futbol azarkeşlərinin, həm də bizim hamımızın yaddaşında xoş bir xatirə, unudulmayan tarixi hadisə kimi qalması üçün polislərimiz yenə də peşəkarlıq, yüksək xidməti nəticə və əsl vətəndaşlıq mövqeyi nümayiş etdirdilər.

**Afərin!**

***Bunu hamımıza indi dünyanın hər yerində daha ucadan söyləyirlər.***

***Natiq Cavadov,***
***Zeyni Hüseynov***

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov 2019-cu il iyun ayının 22-də Lənkəran Şəhər-Rayon Polis Şöbəsində Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov 2019-cu il iyun ayının 14-də Şirvan Şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# İNSAN ALVERİ İLƏ MÜBARİZƏDƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN ROLU

**Mayın 31-də Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi (BMqT) Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə birgə “İnsan alveri ilə mübarizə sahəsində diplomatik nümayəndəliklərin rolu” mövzusunda seminar keçirib.**

Tədbir Avropa İttifaqı və BMqT İnkişaf Fondu tərəfindən birgə maliyyələşdirilən Azərbaycanda İnsan alveri ilə mübarizədə milli potensialın gücləndirilməsi (ENCT) layihəsi çərçivəsində təşkil olunub.

Seminarın açılış mərasimində BMqT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Qjorjiyev, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskas, insan alverinə qarşı mübarizə sahəsində mühüm işlər görən Azərbaycan Hökumətinin səylərini, tərəfdaşlığını və əməkdaşlığını yüksək qiymətləndiriblər.

DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Heydər Heydərov çıxışında insan alveri ilə mübarizədə Azərbaycan Hökumətinin, Daxili İşlər Nazirliyinin həyata keçirdiyi tədbirlərə toxunaraq, insan alveri ilə mübarizə üzrə son statistik məlumatları təqdim edib. Bildirib ki, ötən 5 ildə Azərbaycanda qeydə alınmış 755 insan alveri və məcburi əmək cinayəti üzrə 169 şəxs məhkəmə məsuliyyətinə cəlb olunub. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə beynəlxalq cinayətkar şəbəkənin Azərbaycanda fəaliyyət göstərməsinin qarşısı alınıb, 2 mütəşəkkil dəstə, 58 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 356 qurbandan 312-si təhlükəsiz sığınacağa yerləşdirilib və hər birinə birdəfəlik müavinət, 280 qurbana isə Kömək Fondundan yardımlar verilib. Daha 124 nəfər işlə təmin edilib, 188 nəfər peşə kurslarına cəlb olunub və onların bir çoxu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində İnsan Alveri Qurbanlarına Yardım Mərkəzində qeydiyyata götürülüb. Səhiyyə Nazirliyi tərəfindən isə 706 insan alveri qurbanına və potensial qurbana ciddi yardım göstərilib.

# VƏTƏNDAŞ DA OLAQ, VƏTƏN DAŞI DA

**Səbail Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 162 nömrəli orta məktəbdə narkomaniya ilə mübarizə ilə bağlı keçirilən maarifləndirmə tədbirinin şüarı həm də bu idi.**



RPİ-nin rəisi, polis polkovniki Cavid Muradov bildirdi ki, yeniyetmə və gənclərin narkomaniyaya qurşanması onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına, ən əsası da sağlamlıqlarının zərbə altında qalmasına səbəb olur. O, bu istiqamətdə ictimaiyyət arasında aparılan profilaktiki tədbirlərin əhəmiyyətindən danışaraq gələcəyimizə biganə olmayan insanların bu sahədə fəal mövqe tutmasını, yeniyetmə və gənclərin sağlam həyat yaşaması üçün lazımi təbliğatın aparılmasını xüsusi vurğuladı.



162 nömrəli tam orta məktəbin direktor əvəzi Yaqut Məmmədova, RPİ-nin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovnik-leytenantı Emil Cavadov, BŞBPİ İctimai Təhlükəsizlik İdarəsinin bölmə rəisi, polis polkovnik-leytenantı Məryəm Ömərova, RPİ Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis baş leytenantı Əsəd Umbayev, İçərişəhər dini icmasının sədri Hacı Sadiq, RPİ Veteranlar Şurasının üzvləri və Rayon İcra Hakimiyyətinin əməkdaşları gəncləri ölkəmizdə gündən-günə genişlənən idman hərəkatına qoşulmağa, kitabxanalarda, gənclər mərkəzlərində müasir biliklərə sahib olmağa səslədilər.

***H.Təmirov***

# SEVƏNLƏRİN SAYI ARTIR

**Final oyunu bitdi. Ancaq bu oyunun təəssüratları bilirəm ki, nə futbol azarkeşlərini, nə də bizləri uzun müddət tərk etməyəcək. Çelsi qalibdir. Elə biz də. Bakı hər zaman olduğu kimi, bu dəfə də söz-söhbətlərə, qarayaxmalara öz nümunəsi, işi ilə cavab verdi.**

İngiltərənin özündə çılğın azarkeşlərin nələr etdiyini yaxşı bilirsiniz. Bakıda da o çılğınlıq oldu, amma "fəlakət" səviyyəsində yox.

Qonaqları güllə qarşılayıb gülə-gülə də yola saldıq. Azərbaycana gəlməkdən məmnun idilər. Həm də mxitaryanların "oyunu" iflasa uğramışdı. Onun adı yazılmış köynəyi geyinib Bakıda var-gəl edib, hay-küy salmaq istəyənlər isə o köynəklərin üstündən hələ bir neçə il qara geyinəcəklər.

İdman barış siyasətidir və Azərbaycan bu siyasətə elə müharibə meydanında da sadiqdir. Bizim heç bir dövlətin torpağında gözümüz yoxdur. Bütün sülh platformaları üçün meydanımız genişdir. Gücləndikcə isə top bizdədir qətiyyətimizi və onu əldən verməmək istəyimizi hər kəs görür, elə Mxitaryanın timsalında Ermənistana xal qazandırmaq istəyənlər də.

Avropa Parlamenti yetkililərindən birinin müsahibələrində: "Mən özümü Azərbaycanda daha təhlükəsiz hiss edirəm" deməsi, eləcə də final oyununu izləməyə, işıqlandırmağa gələn media nümayəndələrinin fikirləri Azərbaycanın qələbəsidir. Gələnlər həm də əsl Azərbaycan gerçəyini, Azərbaycan nümunəsini gördülər. Qonağa diqqətimiz, qonaqpərvərliyimiz, "tikəmizin düşməni" olduğumuz da, bu xasiyyətimiz də dəyişməyib.

Azərbaycan sabitlik adasıdır. Azərbaycanlılar kimi vətənimizə gələn hər kəsin təhlükəsizliyi, toxunulmazlığı, hüquqlarının qorunması prioritetdir. Turistlər də bunu yaxşı bilirlər. Azarkeşlər də gəldilər, gördülər və bir daha əmin oldular.

Azərbaycan Polisi bu final oyununda tarix yazdı, hər kəsin diqqət mərkəzində oldu. Əcnəbi azarkeşlər, hansılar ki, pulunu, qiymətli əşyasını, oyunda iştirak etmək üçün aldığı bileti itirmişdi, polisimizin sayəsində sıxıntıdan qurtuldular.

Və həmin gün şahidi olduğum bir mənzərə isə həm qürurverici idi, həm də ürəyi olanlar kövrələrdi də...

28 May metrostansiyasının yaxınlığında dönər almaq istəyən əcnəbiyə, daha doğrusu, ingilisə: "Qonağım olun, bunu pulsuz verirəm",-deyən həmvətənimin səmimiyyəti qonağı təəccübləndirdi, məni duyğulandırdı. İngilis azarkeş ona Çelsinin bayrağını bağışladı. Dönərçi də borclu qalmadı, piştaxtanın bir başında qoyduğu Azərbaycan bayrağını öpüb, alnına qoyub qonağa verdi...

# MAARİFLƏNDİRƏK Kİ...

**Narkomaniya ilə mübarizəyə həsr olunmuş tədbirin növbəti ünvanı Sumqayıtdakı 12 nömrəli orta məktəb idi. Şəhər Polis İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbiri açan məktəbin direktoru Reyhan Babayeva qonaqları təqdim etdikdən sonra polisin bu istiqamətdə gördüyü işlərin içtimaiyyət tərəfindən dəstəkləndiyini, təqdir olunduğunu dedi.**

Qeyd olundu ki, bəla ilə mübarizə dövlət siyasətinin prioritetidir. Sağlam gəncliklə ölkənin dayaqlarının möhkəmlənməsi uğrunda bu gün hər bir qurum üzərinə düşəni məsuliyyətlə yerinə yetirmək üçün çaba göstərir, qarşılıqlı əlaqələr möhkəmlənir.

"Bu günlərdə əvvəllər məhkum olunmuş Salyan sakininin narkotik vasitə almaq üçün 11 yaşlı oğlunu da özü ilə aparması xəbərini çoxunuz eşitdiniz. Onun tutulması istiqamətində keçirilən tədbirlər zamanı azyaşlının hansı psixoloji vəziyyətə düşdüyünü yəqin ki, təsəvvür etdiniz. Öz çirkin niyyətinə övladını da qurban edənlərə valideyn demək olarmı? Narkomanlar, narkotacirlər üçün övlad, ailə anlamı yoxdur. Deməli, bu hisslərdən məhrum olanlar Vətəni də bir göz qırpımında sata bilərlər. Polisin məqsədi bu gün cəmiyyətimizi hörümçək toru kimi sarıb narkomaniya adlı bəlaya gəncləri düçar edənlərlə ciddi mübarizə aparmaq, onların kökünü kəsməkdir. Bu heç də asan olmur. Onlarla mübarizədə həmkarlarımız hətta həyatlarını belə qurban verirlər. Bunu siz gənclərin bilməyi vacibdir. Əgər Vətənə gərəkli övlad olmaq istəyirsinizsə, o zaman bütün zərərli vərdişlərdən uzaq durmalısınız",- deyən Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Nəriman İmanov şagirdlərə dərslərində uğurlar arzuladı.



Həkim-narkoloq Vüsal Cabbarov narkomanlığın genefondumuza ağır zərbə vurduğunu, onun doğurduğu təhlükələri hərtərəfli qiymətləndirməyin və mübarizə tədbirlərinin əlaqələndirilmiş formada aparılmasının vacibliyinə diqqət çəkdi.

ŞPŞ Veteranlar Şurasının sədri Rustavan Əliyev sağlam həyat tərzinin təbliği istiqamətində maarifləndirmə işinin əhəmiyyətini qeyd etdi.



ŞPŞ Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Yaqub Baxşəliyev və digər çıxış edənlər dedilər ki, Azərbaycanı gözü götürməyənlər bu vasitə ilə də kriminogen durumu dəyişməyə, cinayətkar əməllərin çoxalmasına çalışırlar.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı, onlara narkomaniyanın zərərlərini əks etdirən bukletlər paylandı.

***Hafiz Təmirov,***
***polis mayoru***

# GƏNCLƏRİ BU BƏLADAN QORUYAQ!

**Ağdam Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Quzanlı qəsəbəsindəki Heydər Əliyev Mərkəzinin iclas zalında "Narkomaniya ümumbəşəri bəladır", "Erkən nikahın fəsadları" və "Dini radikalizmlə mübarizə" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, müəllimlər, şagirdlər və valideynlər iştirak edib.**

Ağdam RPŞ-nin rəisi, polis polkovniki Pərviz İsmayılov narkomaniyanın cəmiyyətimizə, gənclərin mənəviyyatına, əxlaqına mənfi təsir göstərməsindən, narkomaniya adlı xəstəliyə düçar olaraq həyatlarının məhv olmasından danışıb, bu maddələrin yaratdığı problemlərdən və fəsadlarından geniş bəhs edib.



Dini radikalizm mövzusuna toxunan P. İsmayılov ölkəmizdə hər kəsin dini inanclarına hörmətlə yanaşdığını bildirib. Bu gün din pərdəsi arxasında bəzi qüvvələr öz siyasi, yaxud digər maraqları çərçivəsində gənclərdən istifadə edərək onları xurafata, cəhalətə sürüklədiyi barədə xəbərdar edib.

Rayon Təhsil Şöbəsinin müdiri Mətanət Misirxanova erkən nikahın fəsadlarından danışıb, bu cür neqativ hallara qarşı təhsil müəssisələrində, ictimai yerlərdə, kütləvi informasiya vasitələrində davamlı izahat-maarifləndirmə və ictimai qınaq tədbirlərinin keçirilməsinin vacibliyini vurğulayıb.





Daha sonra çıxış edən Quzanlı qəsəbə məktəbinin 9-cu sinif şagirdi Nərmin Əlizadə öz yaşıdlarına səslənərək bildirib ki, gələcəyimizə təhlükə yaradan bəlalardan uzaq olmaq üçün dövlətimiz çox ciddi addımlar atır. Təhsil müəssisələrinin sayının ildən-ilə artması, yeni iş yerlərinin, idman və əyləncə obyektlərinin açılması gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Gənclər də bütün fikrini elmə və bilikli olmağa yönləndirməyi bacarmalı, asudə vaxtlarını özünün və cəmiyyətimizin sağlamlığı üçün faydalı işlər görməlidir.

***Aslan Qiyaslı,***
***polis leytenantı***

# DÜNYA TƏQDİR EDİR

## ÇÜNKİ BU DA BİR AZƏRBAYCAN BRENDİDİR

**Nəhayət, çoxlarının böyük maraq və intizarla gözlədiyi, ilin əsas idman olaylarından olan UEFA Avropa Liqasının möhtəşəm finalı mayın 29-da Bakının Olimpiya stadionunda baş tutdu. Özü də gözləntilərə uyğun olaraq bu günlərdə ölkəmizə axın etmiş turistlərin, həmçinin xarici və yerli azarkeşlərin fəal dəstəyi, coşqusu və yaxından iştirakı ilə keçirilən bu matç ölkəmizin Cənubi Qafqazın nəinki ictimai-siyasi, sosial-iqtisadi, eləcə də beynəlxalq əhəmiyyətli iri kütləvi mədəni, idman tədbirlərinə uğurla ev sahibliyi edən mərkəzinə çevrildiyini bütün əzəməti ilə ortaya qoydu.**

Xaricdəki anti-Azərbaycan dairələrin sponsorluğu və dirijorluğu, inkişaf etmiş bir sıra Qərb dövlətlərinin paytaxtlarını yağır etmiş "söyüş müxalifəti"nin və yerli radikalların aktiv iştirakı və müşayiəti ilə son aylar daha da intensivləşmiş qarayaxma kampaniyasının əsas hədəfində respublikamızın Avropa İttifaqına, strukturlarına inteqrasiyasının, bu prosesin normativ-hüquqi bazasını təşkil edən müvafiq konvensiyanın imzalanmasının əngəllənməsi vardı.

Ölkəmizin Avropa strukturları ilə hərtərəfli əməkdaşlığını və sıx inteqrasiyasını hədəfləyən strateji kursu məqsədyönlü şəkildə, dönmədən həyata keçirən dövlətimizin üzərimizə atılan çirkaba, sistemli şəkildə aparılan böhtan və şantaj kampaniyasına rəğmən respublikamızı bəlli məqsədlərə və hədəflərə addım-addım yaxınlaşır, qətiyyət və inamla Azərbaycanı azad, müstəqil və demokratik gələcəyə doğru inamla gedir, bu isə nəinki xalqımızda, həmçinin yaxın və dost çevrələrdə, ictimai-siyasi dairələrdə sonsuz fəxarət və qürur hissi doğurur. Çünki bugünlərdə yaranmasının 101-ci ildönümünü qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun şanlı tarixi, eyni zamanda, acı təcrübəsi də əyani şəkildə sübut edir, bu xüsusda ulu öndər Heydər Əliyevin məlum tarixi iqtibası da təsdiqləyir ki, dövlət müstəqilliyini qoruyub saxlamaq, onu əbədi, daimi və dönməz etmək milli istiqlalı qazanmaqdan daha çətin, daha məsuliyyətli vəzifədir, taleyüklü bir hadisədir.

Ötən əsrin əvvəllərində olduğu kimi, müstəqilliyimizə qənim kəsilənlərin, uğurlarımıza sevinməyənlərin, qısqanclıqla yanaşanların, gələcək Avropa evində yerimizi dar etmək istəyənlərin ümumi fikir və məqsədləri eynidir. Dəyişən isə tarixi şərait, zaman və məkan anlayışları, dəyişməyən müstəqil Azərbaycanın regionda lider dövlət kimi mövcudluğu, etibarlı tərəfdaş, bölgədə ümumi sülhün, ədalətin, əmniyyətin bərqərar olunmasına yönəlmiş məqsədyönlü fəaliyyəti, həlledici, sayılıb-seçilən mövqeyidir. İqtidarın üvanına səslənən, onu "demokratiya pressinqi" ilə sıxmağa, güzəştlər qoparmağa hesablanmış ittihamların daha çox ilin yaz aylarında səsləndirilməsi, bu mərhələdə anti-Azərbaycan çevrələrin daha çox "əzələ" nümayiş etdirməsi təsadüfi sayıla bilməz. Ötən ilin aprelində keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin inamlı qələbəsindən sonra daha çox virtual aləmə köç etmiş, görüntü, sadəcə, bir "quş" qoyulması xatirinə ən yaxşı halda başlarına iki yüz-üç yüz təzəli-köhnəli tərəfdar toplamağa qadir olan ənənəvi milli radikallar-demokratların Avropa və Azərbaycan diplomatiyası üçün əhəmiyyətli olan bir mərhələdə, daha sonra futbol üzrə Avropa Liqasının final matçının keçiriləcəyi bir vaxtda hərəkətlənmək və ya yenidən toparlanmaq barədə bəlli mərkəzlərdən sifariş aldıqları şübhə doğurmurdu. Əvvəlki illərdə ölkəmizdə, xüsusən paytaxtda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli idman, musiqi yarışmalarında olduğu kimi, növbəti qaralama kampaniyasının əsas məqsədi, şübhəsiz ki, Azərbaycanın yüksək səviyyəli təşkilatçılıq bacarığına, uğurlu evsahibliyinə mümkün qədər kölgə salmaq, sonuncu tədbirin önəmini və miqyasını azaltmaq üçün əsas diqqəti ölkədaxili problemlərə, əsasən də guya insan hüquqlarının, xüsusən də sərbəst toplaşmaq azadlığının pozulmasına yönəltmək olub.

Sonrakı proseslərin ya məntiqsizliyindən, ya da taleyin ironiyasından doğması bəlli olmasa da ölkəmizə qarşı hər zaman oynanılan senarilərin əsas hissələrindən biri kimi, "Dumanlı Albionu" təmsil edən iki futbol komandasının Bakıdakı final qarşılaşması ərəfəsində ikili standartların simvoluna çevrilmiş insan hüquqları mövzusu ilə klublardan birinin erməni əsilli G.Mxitaryan adlı oyunçusunun özünə və havadarlarına bəlli səbəblərdən yüksək təhlükəsizlik təminatları altında belə paytaxtımıza gəlməkdən imtinası ətrafında yersiz hay-küy, mənasız şou kampaniyasının qaldırılması, zənnimizcə, əks-effekt verdi və bu zəmində anti-reklam, böyük haray-həşir, əslində, mayın 29-da baş tutan final oyununa beynəlxalq diqqəti bir qədər də artırdı, onun möhtəşəmliyinə, kütləviliyinə yeni rənglər, çalarlar qatdı.

*Ardı var.*

***Orxan Mansurzadə,***
***polis polkovniki***

# ÇIXIŞ YOLU... TAPILDI

**Bir anlıq beş uşağın anasız qaldığını təsəvvür edin. Düşünəndə belə qorxu hissi insanı sarır. Bu məsum mənzərəni, əlbəttə ki, kimsə müşahidə etmək istəməz. Beş körpənin tək başına, ana mehrindən, şəfqətindən məhrum olması, həm də onların gələcəyinin sual altında qalması deməkdir...**



İsmayıllı rayon sakini Kamilə (şərti) üzləşdiyi problemlərdən çıxış yolu axtarırdı. Əsəbləri tarıma çəkilmişdi. Dərdini danışmağa, ona birinin yardımçı olmasına ehtiyacı vardı. Çıxış yolunu isə polisə üz tutmaqda tapdı...

"102-Zəng Mərkəzi"nə problemlərindən dolayı intihar edəcəyi barədə məlumat verdi. Çox keçmədən RPŞ əməkdaşları zəng gələn ünvana yollanaraq canına qəsd etməyə hazırlaşan ana ilə psixoloji söhbət apardılar, ona indi ən ümdə vəzifəsinin analıq olduğunu xatırladıblar. Qadın əməlindən peşmançılıq hissi keçirib, fikrindən daşındı.

Bu sözləri o, DİN-ə ünvanladığı minnətdarlıq məktubunda yazır...

***Teymur Əlizadə,***
***polis kapitanı***

# QONŞU-QONŞU OLSA...

***Dünyaya göz açıb, özümüzü dərk edəndən "Yaxın qonşu uzaq qohumdan yaxşıdır" deyimini eşitmişik. Böyüyüb boya-başa çatdığımız toplumda hər zaman qonşuya, qonşuluq münasibətlərinə önəm verib, həssaslıqla yanaşıb böyüklərimiz. Müqəddəs dinimizdə də bu münasibətlərə xüsusi dəyər verilir. Amma bunu da deyiblər: "Qonşun pisdi köç qurtar".***



Sabirabaddan olan Baxşiyevlər ailəsinə beləsi "nəsib" olub...

Yazın gəlişilə təbiət gül-çiçəyə qərq olmuşdu. Adətə görə, ev-eşik təmizlənir, həyət-bacada səliqə-sahman yaradılırdı. Gülarə xala da həmin gün səhər açılandan bir dəqiqə belə dayanmamışdı. Ona bu işlərdə kömək edən qızı Nərmin də əldən-ayaqdan düşmüşdü. Birdən qadın sanki yuxudaymış kimi diksindi, bir neçə gün bundan əvvəl qayını arvadına verdiyi söz yadına düşdü.

*-Ay bala, lap yadımdan çıxıb, axı əmingilə getməliyik.*

*-Get, işləri mən tamamlayaram.*

*-Sən də yubanma...*

*Ardı 4-cü səhifədə.*

*Əvvəli 3-cü səhifədə.*



# QONŞU-QONŞU OLSA...

Gülarə tez-tələsik hazırlaşıb evdən çıxdı.

Qonşuluqda yaşayan Rüfət xeyli müddət idi ki, onları müşahidə edirdi. Kim haçan gəldi, nə vaxt getdi, nəzarət edirdi. Vaxt həmin vaxtdır deyib, neçə gündən bəri planlaşdırdığı çirkin əməli həyata keçirmək qərarına gəldi. Mətbəxdə masanın üstündəki bıçağı götürüb köynəyinin altında gizlətdi. Darvazadan çıxıb oğrun-oğrun qonşusunun hasarına yaxınlaşdı. Bir anlıq dayandı, ətrafı seyr etdi. Kimsənin olmadığından əmin olan kimi hasardan həyətə keçdi. Barmaqlarının ucunda evin qapısına yaxınlaşırdı ki, birdən ayağı sürüşdü. Səsi Nərmin də eşitdi. "Yəqin anam arxamcan adam göndərib",-deyib qapıya tərəf getdi və dərhal da qışqıraraq geri sıçradı.

Əlində bıçaq olan qara maskalı şəxs onun arxasınca evə soxulub, bir zərbəylə köməksiz qızı divana yıxdı və bağırdı:

*-Səsini çıxarsan səni dəlim-deşik edəcəm.*

*-Kimsən, nə istəyirsən?*

*-Tez pulun, qızılların yerini de...*

Hadisə barədə polisə məlumat verildi. RPŞ-nin rəisi, polis polkovniki Namiq Camalov başda olmaqla əməliyyat-istintaq qrupu hadisə yerinə yollandı. Lazımi müayinələr aparıldı, əl-barmaq izləri götürülərək araşdırılması üçün aidiyyatı üzrə göndərildi, şahidlərin olub-olmaması araşdırıldı.

Zərərçəkmiş N.Baxşiyeva hadisənin şokundan ayılmadığından ondan bilgi almaq mümkün olmadı. Ara-sıra xatırladıqları da isə tutarlı bir şey deyildi.

Bu rayonda çox nadir hallarda rast gəlinən hadisə bir anda müzakirə olunan ən mühüm olay oldu.

Əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Bəyməmməd Bayramovun rəhbərliylə yaradılmış əməliyyat-istintaq qrupuna cinayətin üstünün tez bir zamanda açılması tapşırığı verildi. Təxirəsalınmaz tədbirlər nəticəsində qonşusuna qarşı quldurluq etməkdə şübhəli bilinən R.Kərimov saxlanılaraq polisə gətirildi.

Rüfət "od qonşusu"olduqlarını deyib, polislərə yalnış istiqamət vermək istəsə də, işinin peşəkarları olan həmkarlarımız tutarlı dəlillərlə bunun əksini sübut etdilər.

*Ç.Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

**2019-cu ilin II yarısı üçün "Mübariz keşikdə"yə- öz qəzetinizə abunə olmağa tələsin!**

# ADİ VƏ QEYRİ-ADİ HADİSƏ

**Mayın 29-da Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşmasını izləmək üçün dünyanın hər yerindən ölkəmizə minlərlə azarkeş gəlmişdi.**



Onlar televiziya ekranlarından seyr etdikləri, haqqında kitablardan oxuduqları Bakımızın gəzməli-görməli yerləri ilə tanış olur, sirli-sehirli mətbəximizin təamlarından dadır, tarixi abidələrimizi ziyarət edir, yanında xatirə şəkilləri çəkdirirdilər. Elə ilk baxışdan bəlli olurdu ki, özlərini vətənlərindəki kimi hiss edirlər. Canlarından, pullarından, təhlükəsizliklərindən arxayın idilər. Çünki asayişin, sabitliyin etibarlı qorunduğu dünyanın ən sabit ölkəsinə səfər etmişdilər.

Yarış öncəsi və yarışdan sonra asayiş keşikçiləri hər şeyə, hətta ən xırda detallara belə diqqət yetirirdilər.

Yerə düşən pulqabının da ilk olaraq onlar fərqinə vardılar. Sahibi isə çoxdan izdihama qarışmışdı. Polis üçün, həm də pulqabı itirən şəxsi tapmaq nə çətin işdir ki...

Bir az da çaşqın, necə deyərlər, ümidsiz halda polisə müraciət edən Britaniya vətəndaşı başına gələnləri danışıb qurtarmamış polis əməkdaşlarının: "Bu sizsinizmi",- deyərək pasportunu və pulqabını ona təqdim etmələri yaxınlıqda olan hər kəsi təsirləndirdi.

Sevincindən fikirlərini ifadə etməkdə çətinlik çəkən əcnəbi arazidə xidmət aparan həmkarlarımıza, konkret olaraq, itirdiyini tapan Səbail RPİ 9-cu Polis Bölməsinin əməkdaşı, polis kapitanı Fədai Maqsudova təşəkkkürünü bildirib onu ölkəsinə dəvət etdi.

*Ş. Çingiz*

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

# DÜNYAYA PƏNCƏRƏ

İnterpol Tailand, ABŞ və Avstraliyada keçirdiyi uzunmüddətli əməliyyat nəticəsində 50 uşağı cinsi zorakılıqdan xilas edib. Əməliyyat 2017-ci ildən etibarən başlayıb.

Bildirilir ki, o zaman Tailandda azyaşlı uşaqlara zorakılığı təbliğ edən internet saytı aşkar edilmişdi. Saytın 63 min abunəçisi olduğu müəyyən edilmişdi. Hazırda xilas edilən uşaqlarla yanaşı, daha 100 nəfərin axtarışları davam etdirilir.

Qeyd edək ki, saytın təsisçisi 146 il müddətinə azadlıqdan məhrum edilib. Əməliyyat zamanı saxlanılan daha iki nəfərə isə 36 və 40 illik həbs cəzaları verilib.

*****

***Missisipi ştatındakı Klarksdeyl şəhərinin meri Çak Espi cinayətkarlığa qarşı mübarizədə kreativ üsul təklif edib. O, öz bəyanatında bildirib ki, narkotacirlərin, quldur dəstələrinin üzvlərinin və digər cinayətkarların yeni həyata başlamalarına kömək məqsədilə onların hərəsinə 10 min ABŞ dolları ödəməyə hazırdır.***

***Mer bu vəsaitin həmin şəxslər digər şəhərlərə köçdükləri halda yardımçı olacağını qeyd edib. O, şəhərin təhlükəsiz olmasından ötrü şəxsi vəsaitini sərf etməyə hazır olduğunu və başqa şəhərə köçən cinayətkarların həyatlarını yenidən qurmaları üçün yardımın ilkin olaraq 10 min dollardan başladığını bildirib.***

***Merin fikrincə, yerli biznesmenlər və filantroplar onun təşəbbüsünü dəstəkləyəcəklər. Şəhərdən köçməyi arzulayanlar üçün mer tərəfindən yaradılan yardım fondu şəhərdə cinayətkarlığın səviyyəsinin aşağı salınması məqsədilə hazırlanan planın beş mərhələsindən biridir.***

*****

Mayın 23-dən Latviyada yol hərəkəti haqqında yeni qanun qüvvəyə minib. Artıq avtomobil idarə edən şəxslərin sürücülük və qeydiyyat vəsiqələrini özləri ilə daşımasına ehtiyac olmayacaq. Yol Hərəkəti Təhlükəsizliyi İdarəsinin rəsmi məlumatında bildirilir ki, sürücünün özü ilə şəxsiyyətini təsdiq edən sənədi daşıması kifayətdir. Digər sənədlərin olmamasına görə tətbiq olunan cərimələr də qüvvədən düşür.

Lakin bu qayda xarici vətəndaşlara tətbiq olunmayacaq. Onlar beynəlxalq normativlərə cavab verən sürücülük vəsiqələrini özləri ilə gəzdirməlidirlər.

*****

***ABŞ-da ölkənin hər yerində axtarılan şəxs sosial media vasitəsilə polislə əlaqə yaradıb və polisin onunla bağlı verdiyi elanın 15 min dəfə bəyənilməsindən sonra təslim olacağını bildirib.***

***Lakin polisin sosial mediada verdiyi elan 20 min dəfə bəyənilsə də, həmin şəxs hələ də təslim olmayıb.***

*Natiq Cavadov*

# Mayın 28-dən iyunun 3-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 172 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 84 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 104, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 7, borclu şəxs qismində axtarışda olan 39 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 19 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 24 nəfər ölmüş, 10 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 110 fakt müəyyən edilmişdir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti iş yoldaşları Tofiq Əfəndiyevin qardaşı
**NEMƏT ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti iş yoldaşları Samir Cabarova dayısı
**MAMED kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal RPİ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Teymur Hacıyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qambay Zeynalov, Tahir Qədirov, Çingiz Alıxanlı Tofiq Əfəndiyevə qardaşı
**NEMƏT ƏFƏNDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Azər Əfəndiyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göygöl RPŞ-nin rəisi Mirnemət Mirbabayev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
**NAMİQ RÜSTƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00